

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 123 (21.024)

1 iyul 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



İyunun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolay Paskeviç ilə görüşmüşdür.

Ali Məclisin Sədri Belarus Respublikasının alman-faşist işğalçılarından azad olunmasının 70-ci ildönümü münasibətilə səfiri təbrik etmiş, qələbənin qazanılmasında azərbaycanlıların apardığı mübarizəni diqqətə çatdırmışdır.

Azərbaycan-Belarus əlaqələrinin uğurla inkişaf etdiyini bildirən Ali Məclisin Sədri ikitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolunu qeyd etmişdir. Bildirilmişdir ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Belarus Respublikası arasındakı əlaqələr müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı və tibbi sahədə inkişaf edir. Ali Məclisin Sədri əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini bildirmiş, səfirə işlərində uğurlar arzulamışdır.

Səmimi qəbula görə minnətdarlıq edən Nikolay Paskeviç Belarus Respublikasının alman-faşist işğalçılarından azad olunmasında azərbaycanlıların göstərdiyi qəhrəmanlığı xüsusilə qeyd etmiş, səfər çərçivəsində Naxçıvandan olan müharibə veteranlarına xatirə medallarını təqdim edəcəyini bildirmişdir. Səfir Azərbaycanın, eləcə də onun Naxçıvan Muxtar Respublikasının sürətlə inkişaf etdiyini və ölkələrimiz arasındakı dostluq əlaqələrinin yaxşı perspektivi olduğunu vurğulamışdır.

Görüşdə əlaqələrin gələcək inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Belarus Respublikasının fövqəladə və səlahiyyətli səfiri Naxçıvanda səfərdə olub

*Dünən Naxçıvan Şəhər İcra Hakimiyyətində Belarus Respublikasının alman-faşist işğalçılarından azad olunmasının 70-ci ildönümü münasibətilə təsis edilmiş yubiley medallarının təqdimat mərasimi keçirilib. Belarus Respublikasının azad olunmasında iştirak etmiş və hal-hazırda muxtar respublikamızda yaşayan veteranlara yubiley medallarını bu ölkənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Paskeviç təqdim edib.*





Veteranlarla görüşündə səfir bildirib ki, 70 il bundan əvvəl, 1944-cü il iyulun 3-də Belarus Respublikası alman faşistlərindən təmizlənərək azad edilib. Bu mübarizədə sovet qoşunlarının tərkibində vuruşan azərbaycanlılar da az olmayıb. Onlar qəhrəmanlıqla mübarizə apararaq vətənimizin düşmənlərdən təmizlənməsində mühüm rol oynayıblar. Onlardan bir çoxu dünyasını dəyişsə də, yaşayanlar da var. Azərbaycanda belə veteranların sayı 160 nəfərdir. Bu gün onlardan 15 naxçıvanlı veterana yubiley medallarının təqdim edildiyini deyən səfir ölkəsinin vətəndaşları adından həmin veteranlara minnətdarlığını bildirib.

Belarus cəbhəsində vuruşan veteranlardan Fərman Sadıqov, Məmmədəli Sultanov onlara göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

Belarus Respublikasının səfiri Nikolay Paskeviç qəzetimizə müsahibəsində bildirib ki, Naxçıvana ilk dəfə 2006-cı ildə səfər edib. O vaxtdan indiyədək burada çoxlu dəyişikliklərin getdiyini vurğulayan səfir deyib: "Naxçıvan xeyli inkişaf edib, baxmayaraq ki, muxtar respublika blokada şəraitində yaşayır. Ötən dövr ərzində burada yeni sənaye müəssisələri yaradılıb, bu müəssisələrdə yerli məhsullar istehsal olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovla da görüşümüzdə Naxçıvanın Belarus Respublikası ilə hərtərəfli əlaqələrini aktivləşdirmək yollarından bəhs etdik, həmçinin iş adamlarının buradakı mühiti yaxından öyrənməsi istiqamətində müzakirələr apardıq. Bildiyiniz kimi, Belarus Respublikası avtomobil, həmçinin müxtəlif kənd təsərrüfatı texnikalarının istehsalında qabaqcıl təcrübəyə malikdir. Hazırda bizim Gəncə Avtomobil Zavodu ilə əməkdaşlığımız var və bu əməkdaşlıq yüksək səviyyədə inkişaf edir. Mən Naxçıvan Avtomobil Zavodunda oldum, burada müasir, gözəl və rahat avtomobillərin istehsal olunduğunu gördüm. İnanıram ki, bu avtomobillər çox qısa zamanda xarici bazarda da öz sözünü deyəcək".



Səfir deyib ki, Belarus Respublikasının qəhrəman Brest şəhəri ilə Naxçıvan şəhəri arasında əlaqələr genişlənir. Bildiyiniz kimi, 2012-ci ildə Naxçıvan və Brest şəhərləri arasında iqtisadi-ticarət və humanitar-mədəni sahələrdə əməkdaşlıq haqqında saziş imzalanıb, bu iki şəhər qardaş şəhərlər elan olunub. Naxçıvan və Brest şəhərləri arasındakı əlaqələrin genişləndirilməsi Azərbaycan və Belarus arasındakı dostluq əlaqələrinin nəticəsidir. Bir daha qeyd etmək istərdim ki, Naxçıvan öz inkişaf parametrlərinə görə hazırda Azərbaycanın ən öndə gedən bölgələrindən biridir. Əldə edilən bütün bu nailiyyətlərə görə naxçıvanlıları təbrik edirəm və inanıram ki, bu qabaqcıllığı hər zaman qoruyub saxlaya biləcəklər.

Qeyd edək ki, səfir Naxçıvan Biznes Mərkəzində də olub. Burada qonağa yerli istehsal məhsulları haqqında ətraflı məlumat verilib.

Dünən səfir Nikolay Paskeviçin Naxçıvana səfəri başa çatıb.

**Səbuhi HƏSƏNOV**

## Azərbaycanın ən yeni tarixində Naxçıvan

*Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında "Azərbaycanın ən yeni tarixində Naxçıvan" mövzusunda tədbir keçirilmişdir. Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev açaraq Azərbaycanın ən yeni tarixində Naxçıvanın yeri və rolu haqqında danışmışdır.*

Tədbirdə Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Elvin Məmmədov, Qadınlar Şurasının sədri Könül İsmayılova, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Elmar Zeynalov çıxış etmişlər.

Çıxışlarda qeyd olunmuşdur ki, muxtariyyətinin 90 illiyini qeyd etdiyimiz Naxçıvanın inkişafından danışarkən, ilk növbədə, yadımıza ulu öndər Heydər Əliyev düşür. Çünki Azərbaycana rəhbərliyi dövründə dahi şəxsiyyət Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə 1980-ci illərin əvvəllərində Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı.

Bildirilmişdir ki, 1980-ci illərin sonları Naxçıvan üçün əsl sınaq dövrü idi. Yenə də ulu öndərin rəhbərliyi ilə naxçıvanlılar bu ağır sınaqdan şərəflə çıxa bilmişlər.

Ulu öndərin muxtar respublikaya rəhbərlik etdiyi dövrdə Naxçıvanın adı dəyişdirildi. Ümummilli liderin təklifi ilə "Sovet Sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Həmin dövrdə muxtar respublika müxtəlif çətinliklərə düçar olsa da, xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin siyasi fəaliyyəti nəticəsində Naxçıvan bu vəziyyətdən çıxa bilmiş və bugünkü dinamik inkişaf yoluna qədəm qoymuşdur. Blokadanın çətinliklərinə baxmayaraq, son 18 ildə muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilmiş, Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoymuş, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuş, Naxçıvan əsl inkişaf yoluna çıxmışdır.

Sonda Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən slayd nümayiş etdirilmişdir.

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər müəssisələrin metodist və tərbiyəçi-müəllimlərinin iştirakı ilə kurs təşkil edilmişdir.*

## Dövlət proqramının icrası ilə əlaqədar kurs təşkil edilib

Tədbiri komitənin aparat rəhbəri Zeynal Hümbətov açaraq bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" muxtar respublikanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də qarşısında bir sıra vəzifələr qoymuşdur. Bu baxımdan komitə aidiyyəti təşkilatlarla birgə məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin bu sahədə peşəkarlıq səviyyəsinin artırılması məqsədilə rübdə bir dəfə belə kurslar təşkil edir.

Naxçıvan Müəllimlər İnstitutunun Psixoloji xidmət bölməsinin rəhbəri Məsum Tarverdiyev çıxış edərək vurğulamışdır ki, adıçəkilən proqram muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər müəssisələr qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələrin uğurlu icrası sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbində və cəmiyyətə layiqli vətəndaş kimi yetişmələrində mühüm rol oynayacaq. Məktəbəqədər təhsil müəssisələrində çalışan metodist, tərbiyəçi-müəllimlər uşaqların, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların valideynləri ilə sıx əlaqə saxlamalı, bu qəbildən olan uşaqların cəmiyyətə inteqrasiyasına daha çox səy göstərməlidirlər. Bundan əlavə, bu uşaqlarla fərdi şəkildə və xüsusi həssaslıqla məşğul olunmalı, onların digər uşaqlarla daha çox ünsiyyət qurmalarına, birgə oyunlar keçirmələrinə şərait yaradılmalıdır.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

# Gələcəyimiz olan uşaqların qayğısına qalaq!

## Bəs bunun üçün cavabdeh olan orqanlar hansı işləri görüblər?

***“Uşaqları qorumaq, onları müdafiə etmək hər bir dövlətin qarşısında duran əsas vəzifədir. O cəmiyyət öz sabahına ümidlə baxa bilər ki, gənc nəslin yetişməsi qayğısına qalsın, bununla bağlı vəzifələri yerinə yetirsin. Bu gün ölkəmizdə uşaq hüquqlarının qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndərimizin rəhbərliyi ilə Azərbaycanda tikilən məktəblər, məktəbdənkənar və məktəbəqədər tədris müəssisələri, kitabxanalar xalqımızın və ölkəmizin gələcəyinə hesablanmış tədbirlər idi. Müstəqillik dövründə isə ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanda dövlət uşaq siyasətinin əsası qoyulmuş, uşaq hüquqlarının qorunması sahəsində zəngin qanunvericilik bazası yaradılmışdır”.*** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun cari ilin may ayının 31-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə keçirilən tədbirdə səsləndirdiyi bu fikirlər Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında dövlətin uşaq və gənclər siyasətinin məqsəd və vəzifələrini ifadə edir. Sözügedən tədbirdə təkcə bu istiqamətdə keçilən yola nəzər salınmamış, həm də gələcək vəzifələr müəyyənləşdirilmiş, bu sahədə dövlət siyasətini icra etməli olan qurumlara müvafiq tapşırıqlar verilmişdi. Bəs, görəsən, bu tapşırıqların verilməsindən ötən bir ay müddətində cavabdeh təşkilatlar hansı işləri həyata keçiriblər?

Sözügedən tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə **uşaq hüquqlarının qorunması məqsədilə maarifləndirici tədbirlərin və təbliğat işinin gücləndirilməsi, uşaqlar haqqında elektron məlumat bankının yaradılmasının başa çatdırılması** tapşırılmışdı. Qeyd edək ki, bu tapşırıqların icra müddəti 2014-cü ilin sonuna qədər müəyyənləşdirilib. Bu tapşırıqların icrası ilə bağlı komitəyə ünvanladığımız elektron sorğuya cavab olaraq bildirdilər ki, uşaqların hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınması, dövlət uşaq müəssisələrində uşaqların hüquqlarının qorunması, bu müəssisələrdə uşaqlara qarşı münasibətin araşdırılması məqsədilə 13 dövlət uşaq müəssisəsində monitorinqlər keçirilib. Belə ki, Naxçıvan şəhər 4 nömrəli, Sədərək rayon Sədərək kənd 1 nömrəli, Şərur rayon Xanlıqlar kənd, Şahbuz rayon Badamlı qəsəbə tam orta məktəblərində, Naxçıvan şəhər 15 nömrəli, Şərur və Ordubad rayonlarındakı uşaq bağçalarında, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində (2 dəfə), Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə (2 dəfə) və Ordubad şəhərindəki M.Füzuli adına tam orta internat məktəbində (2 dəfə) monitorinqlər aparılıb. Monitorinqlərdən 3-ü məhz iyunda reallaşdırılıb.

Monitorinq zamanı aşkarlanan bütün çatışmazlıqlar, məktəblərdə sanitar-gigiyenik vəziyyət barədə və mütəmadi olaraq dərslərdən yayınan uşaqlarla bağlı müəssisə rəhbərliklərinə bir sıra tövsiyələr verilib, müvafiq məsələlər rayon (şəhər) yerli icra hakimiyyətləri yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə komissiyalara, Polis və Təhsil şöbələrinə bildirilib, uşaqlara hüquqları barədə ətraflı məlumat verilib. Monitorinq keçirilən bütün məktəblərin yuxarı sinif şagirdləri ilə milli dəyərlər, erkən nikah və zərərli vərdişlərdən uzaqlaşdırılma ilə bağlı qabaqlayıcı profilaktik söhbətlər aparılıb və uşaqların hüquqları ətraflı izah olunub.

2014-cü ilin ötən 6 ayındakı statistik göstəricilərin təqdim edildiyi məlumatda sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin edilməsi ilə əlaqədar aidiyyəti təşkilatlarla birgə muxtar respublikanın 171 tam orta məktəbində, 18 məktəbəqədər və 37 məktəbdənkənar müəssisəsində, 25 uşaq musiqi məktəbində, 8 şahmat məktəbində, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində və Naxçıvan Dövlət Texniki Kollecində monitorinqlər keçirildiyi qeyd edilir.

Uşaqların hüquqlarının qorunması, cəmiyyətə inteqrasiya və adaptasiya olunması məqsədilə iyun ayı ərzində 120 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə saxlanılıb. Bunlardan 1-i məktəbəqədər, 2-si məktəbdənkənar müəssisələrə, 8-i uşaq musiqi məktəblərinə, 7-si idman məktəblərinə, 4-ü şahmat məktəblərinə, 3-ü Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinə, 1-i Naxçıvan Dövlət Uşaq Filarmoniyasına, 1-i Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə, 2-si tam orta məktəblərə, 2-si isə Uşaq Bərpa Mərkəzinə cəlb olunub.

Muxtar respublikanın şəhər, rayon və kənd tam orta məktəblərində uşaq hüquqlarının qorunması, erkən nikah, uşaqların zərərli və pis vərdişlərdən uzaqlaşdırılması, milli dəyərlərin onlara aşılanması məqsədilə seminarlar keçirilib. Belə ki, 11 dəfə “Milli dəyərlər və uşaqlar” mövzusunda seminarlar keçirilib ki, bunlardan da məhz 3-ü iyun ayına təsadüf edib.

Uşaq hüquqlarının təbliği məqsədilə Azərbaycan Respublikasının Cinayət, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, Əmək məcəllələrindən uşaq hüquqları ilə bağlı çıxarışlar toplusu, “Məişət zorakılığının qarşısının alınmasına dair qanunvericilik toplusu”, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun, Birləşmiş Millətlər Təşkilatının “Uşaq hüquqları haqqında” Konvensiyasının mətnləri və “Erkən nikah-ailə faciəsinin təməli”, “Milli dəyərlərimiz deyəndə nələri başa düşürük?” adlı broşürlər hazırlanıb, keçirilən seminar və tədbirlərdə təkcə iyun ayı ərzində 240 broşür paylanılıb.

Cari ilin sonuna kimi uşaq hüquqlarının qorunması məqsədilə həyata keçiriləcək maarifləndirici tədbirlərə gəlincə, məlumatda qeyd edilir ki, ilin sonunadək 23 uşaq müəssisəsində dövri monitorinqin keçirilməsi nəzərdə tutulub. Hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, övladlığa götürülmüş uşaqların uçotunun aparılması, həyat şəraiti ilə tanış olmaq məqsədilə onların evlərinə monitorinqlərin təşkil edilməsi və müvafiq tədbirlərin görülməsi də nəzərdə tutulan tədbirlər sırasındadır.

Uşaqlar arasında milli dəyərlərimizin qorunub saxlanılması, adət-ənənələrimizin gələcək nəsillərə çatdırılması məqsədilə muxtar respublikanın məktəbdənkənar müəssisələrində və ümumtəhsil məktəblərində “Milli dəyərlər və uşaqlar”, “Yeniyetməlik dövrünün çətinlikləri” mövzularında 27 seminarın keçirilməsi nəzərdə tutulub.

Bəs, görəsən, uşaqlar haqqında elektron məlumat bankının yaradılması istiqamətində hansı işlər görülüb? Komitədən deyirlər ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2013-cü il 23 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”na uyğun olaraq, komitə ötən ilin may ayında Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinə müraciət edib, hal-hazırda elektron məlumat bankının proqram təminatı bu mərkəzdə hazırlanır. Elektron məlumat bankının administratoru Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Muxtar respublikanın 17 təşkilatı öz funksiyalarına uyğun olaraq, uşaqlar haqqında məlumat verəcək. Bu məlumatlar uşağın adı, soyadı və atasının adı, doğulduğu tarix, yaşadığı ünvan, valideynləri haqqında məlumat, sağlamlıq tarixçəsi, təhsil aldığı müəssisə, uşağa və onun valideynlərinə yönləndirilmiş sosial xidmətlər, uşağın hüquqpozmaları, uşağa qarşı hüquqpozmalar və digər məsələlərlə bağlı olacaqdır. Dövlət orqanları, hüquqi və fiziki şəxslər məlumat bankından məlumat almaq üçün bilavasitə məlumat bankının administratoruna sorğu vasitəsi ilə müraciət edəcəklər. Daxil olan sorğu administrator tərəfindən öyrəniləcək və sorğunun daxil olduğu gündən 7 iş günü müddətində onun icrası təmin ediləcəkdir. Elektron məlumat bankında qeydiyyata alınmış uşağın elektron anketi 18 yaşına çatdıqdan 25 il sonra ləğv edilir.

Təbii ki, sağlam ruh sağlam bədəndə olar. Uşaqların sağlamlığının qorunması əsas vəzifələrdəndir. 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə **ümumtəhsil məktəblərində uşaq əhalisinin tibbi yoxlamadan keçirilməsinin təmin edilməsi, profilaktik tədbirlərin görülməsi, uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi** tapşırılıb. Bununla bağlı sorğumuza cavab verən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, ümumilikdə, bu sahədə həyata keçirilən işlər haqqında məlumat verib. Məlumatda iyun ayında keçirilən işlərlə bağlı təkcə iyunun 15-də reabilitasiyaya ehtiyacı olan uşaqlardan 6 nəfərinin Yunanıstanın Soloniki şəhərinə, 6 uşağın isə Latviya Respublikasının Yurmala şəhərinə fizioterapevtik müalicə almaq üçün göndərildiyi qeyd edilib. Lakin apardığımız dəqiqləşdirmələr göstərdi ki, 6 uşağın Latviya Respublikasının Yurmala şəhərinə fizioterapevtik müalicə almaq üçün göndərilməsi Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilib. Yunanıstanın Soloniki şəhərinə göndərilən şəxslər isə uşaqlar olmayıb və bu tədbiri də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirib. Bu barədə “Şərq qapısı” qəzetinin 18 iyun 2014-cü il tarixli sayında informasiya da təqdim olunub. Ümid edirik ki, adıçəkilən nazirlik bu yanlış informasiyanı, sadəcə olaraq, mətbuat əməkdaşı kimi sayıqlığımızı yoxlamaq məqsədilə təqdim edib. Və nazirliyin bu istiqamətdə həyata keçirdiyi digər işlər də vardır.

Sözügedən tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə **sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin daim diqqət mərkəzində saxlanılması, onların cəmiyyətə inteqrasiyası, təhsili və asudə vaxtlarının səmərəli təşkili üçün aidiyyəti orqanlarla birlikdə tədbirlərin görülməsi** tapşırılıb. Sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının təşkili üçün nazirlik onların milli və mənəvi dəyərlərimizin qorunduğu mədəniyyət ocaqlarına, tarixi-memarlıq abidələrinə ekskursiyasını, istedadlı uşaqları üzə çıxarmaq məqsədilə bədii yaradıcılıq müsabiqələrinin və idman yarışlarının keçirilməsini nəzərdə tutub. İyunun 4-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Ağbulaq İstirahət Mərkəzində sağlamlıq imkanları məhdud 47 məktəbli uşağın valideynlərinin müşayiəti ilə istirahəti təşkil edilib. Yeddigünlük istirahət müddətində sağlamlıq imkanları məhdud uşaqların mənalı istirahətini təmin etmək məqsədilə tərtib edilmiş tədbirlər planına uyğun olaraq, uşaqların iştirakı ilə idman yarışları təşkil olunub, musiqi istedadı olan uşaqları aşkara çıxarmaq üçün karaoke müsabiqəsi keçirilib, fiziki imkanları məhdud ifaçılardan ibarət “İnam” musiqi qrupu uşaqlar qarşısında konsert proqramı ilə çıxış edib, tennis və dama üzrə yarışlar keçirilib, həmçinin uşaqların təbiət haqqında biliklərini zənginləşdirmək məqsədilə təbiət gəzintisi təşkil olunub.

Mədəniyyət və Turizm Nazirliyi isə istedadlı **uşaqların aşkara çıxarılması, onlarla işin təşkili üçün fəaliyyətin gücləndirilməsinə** cavabdehdir. Nazirlikdən sorğumuza cavab olaraq bildirdilər ki, hər tədris ilində istedadlı uşaqların aşkara çıxarılması məqsədilə müsabiqələr, baxışlar, konsertlər təşkil edilir. Həmçinin respublika səviyyəli müsabiqələrdə muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində təhsil alan şagirdlərin iştirakı təmin edilir. 2013-2014-cü tədris ilində də uşaq və gənclər arasında xalq çalğı alətləri ifaçılarının III respublika müsabiqəsinin I turu keçirilib və müsabiqədə 9 nəfər şagird fərqlənib. İyun ayında 13 nəfər şagirdin konserti təşkil edilib və onlar Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanları ilə təltif olunublar. Məlumatda o da qeyd edilir ki, nazirliyin qarşısına qoyulan vəzifələrin icrası növbəti tədris ilində də mütəmadi olaraq davam etdiriləcək.

**Uşaqların məktəbdənkənar vaxtlarının, xüsusilə yay tətili dövrünün səmərəli təşkili üçün tədbirlər planının hazırlanması, uşaqların bədən tərbiyəsi və idmanla məşğul olmalarının xüsusi nəzarət qaydasında həyata keçirilməsi** Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin üzərinə düşən vəzifədir. Nazirlikdən deyirlər ki, uşaqların məktəbdənkənar vaxtlarının, xüsusilə də yay tətili dövrünün səmərəli təşkili üçün Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə tədbirlər planı hazırlayıb və bu tədbirlərin həyata keçirilməsi istiqamətində işlər aparılır.

Dövlət orqanları və kütləvi informasiya vasitələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi kimi yaradıcı təşkilatların üzərinə də bir çox vəzifələr düşür. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigarın sözlərinə görə, uşaqların zehni inkişafına və onların vətənpərvərlik tərbiyəsinə xidmət edən yeni əsərlərin yaradılmasının təşviqi üçün iş aparılır. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi isə öz üzərinə düşən vəzifələrə uyğun olaraq, artıq bir sıra layihələrin reallaşdırılması üzərində işləyir. Birliyin sədri Ülviyyə Həmzəyeva deyir ki, bir müddət sonra uşaqlar arasında “Yurdum mənim – Naxçıvan” asfalt üzərində rəsm müsabiqəsinin keçirilməsi nəzərdə tutulur. “Nuh yurdu” uşaq və gənclərin birinci rəsm festivalı isə istedadlı uşaq rəssamlarının bacarıqlarının üzə çıxarılması və nümayişi məqsədini daşıyacaq.

Növbəti tədris ilindən başlayaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin üzərinə də bir sıra vəzifələr qoyulub. Nazirlik ümumtəhsil məktəblərində uşaqların hərtərəfli təhsili ilə yanaşı, onların vətənpərvərlik ruhunda tərbiyəsinə də diqqətin artırılması, şagirdlərdə milli dəyərlərimizə sahiblik hissinin formalaşdırılmasına çalışmalıdır.

*Nəzərə alaq ki, verilən tapşırıqlardan cəmi bir ay müddət ötüb. Deməli, mövzuya yenidən qayıdacağıq.*

Elnur KƏLBİZADƏ

# Ağbulaq İstirahət Mərkəzində növbəti yay düşərgəsi

*Muxtar respublikamızın zəngin və rəngarəng təbiəti burada turizmin inkişafına əlverişli şərait yaradır. Ötən il Ağbulaq İstirahət Mərkəzinin istifadəyə verilməsi yaradılan şəraitə bariz nümunədir. Yayın isti vaxtlarında dağlar qoynunda yerləşən bu sərin məkan Şahbuza üz tutan insanların diqqətini cəlb edir. Yay fəsli ilə əlaqədar olaraq bu məkana gələnlərin sayı çoxalıb.*

Bu dəfə isə Ağbulaq İstirahət Mərkəzində gənclərin yay düşərgəsi təşkil olunub. Ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan və ictimai işlərdə fəallıq göstərən gənclərin iştirakı ilə təşkil edilən yay düşərgəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən təşkil olunub. Yay düşərgəsinin ilk günündə fondun icraçı direktoru Məmməd Babayev çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla həyata keçirilən dövlət gənclər siyasəti və bu sahədə görülən ardıcıl tədbirlər barədə danışıb. Qeyd olunub ki, bu gün muxtar respublikamızda gənclərin asudə vaxtının səmərəli təşkili, intellektual inkişafının təmin edilməsi, onların gələcəyin əsl vətəndaşı kimi yetişdirilməsi üçün hər cür şərait yaradılıb. Yaradılan şəraitdən düzgün istifadənin vacibliyini vurğulayan Məmməd Babayev gənclərə xoş və mənalı istirahət arzulayıb.

Gənclər isə onlar üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Onu da qeyd edək ki, yay düşərgəsində gənclər əvvəlcədən müəyyənləşdirilmiş günün nizam qaydasına uyğun olaraq hərəkət ediblər. Düşərgədə müxtəlif idman oyunları, müsabiqələr, intellektual yarışlar təşkil edilib, “Gənclərin düzgün karyera seçimi” mövzusunda diskussiyalar keçirilib. Hər axşam Azərbaycan filmlərinin nümayiş etdirilməsi və bu mövzuda müzakirələrin aparılması isə gənclərin tarixini, milli dəyərlərimiz və adət-ənənələrimizlə tanış olması, onlara vətənpərvərlik ruhunun aşılanması baxımından mühüm əhəmiyyət kəsb edir. Düşərgədə fərqlənən gənclərə Gənclər Fondunun hədiyyələri və diplomları təqdim olunub. Qeyd edək ki, iyunun 25-də başlanan yay düşərgəsi bu gün başa çatır.

Xəbərlər şöbəsi

# İqtisadiyyat



## Dövlət proqramı uğurla icra olunur



***Qədim Naxçıvanımız gözlərimiz önündə günbəgün gözəlləşir, yaraşıqlı, yaşıllığa qərq olan bir diyara, könüllər oxşayan məkana çevrilir. Bütün bunları görməmək, duymamaq mümkün deyil.***

Gerçəklik odur ki, nəinki Naxçıvan şəhəri, bütünlükdə, muxtar respublikamız yaşıl dona bürünür. Salınan meşə zolaqları, yaradılan yaşıllıqlar, al-əlvan gülzarlıqlar, yeni meyvə bağları yeniləşən diyarımızın gözəllik simasına təzə naxışlar salır. “Yaşıllıq torpağın təbəssümüdür” deyənlər yanılmayıblar. Ulu diyarın hər qarışında üzə gülən yaşıllıqlar onun hüsnünə bahar təravəti gətirmiş, havasına xoş rayihə qatmışdır.

Bütün bunlar insanların torpağa məhəbbəti, ülvi sevgisi, eyni zamanda əməyi, alın təri hesabına yaranır. Çünki insanlar həmişə torpağa həyat qaynağı kimi baxmışlar. Torpaq Tanrının insana bəxş etdiyi ən qiymətli sərvətdir. Bu sərvəti qorumaq, sevmək, əkib-becərmək hər birimizin müqəddəs borcu olmalıdır. Dünya binə olandan insan onu əkib, becərib, məhsul istehsal edib, bolluq yaradıb.

Ulu öndər Heydər Əliyev hələ neçə illər bundan əvvəl ölkəmizin tərəqqisini torpaq islahatlarının aparılmasında görmüş və ilk dəfə olaraq bu işə Naxçıvanda başlanmışdır. Bu gün qürur və iftixar hissi ilə demək olar ki, təməli dahi rəhbərimiz Heydər Əliyev tərəfindən qoyulan aqrar islahat kəndə və kəndliyə əsl sahibkarlıq hissi bəxş etmişdir. Elə buna görədir ki, bir vaxtlar torpağa üz döndərib böyük şəhərlərə axışan cavanlarımızın əksəriyyəti artıq geri dönmüş, torpaqla ülfət bağlamışdır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində torpaq sahibkarı olan kəndlinin məhsul istehsalına olan marağı daha da artmışdır. Bunun müqabilində isə regionumuzun bütün yaşayış məntəqələrində pay torpaqlarından səmərəli istifadə edilir. Əkin, biçin, halal zəhmət hesabına muxtar respublika paytaxtında, eləcə də rayon mərkəzlərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına çeşid-çeşid məhsullar çıxarılır. Məhsul bolluğu yaradılmasında bağbanların da əməyi böyükdür. Mövcud bağlara və yeni salınan bağlara qayğı göstərən, bağların becərilməsini aqrotexniki qaydalar əsasında həyata keçirən bağbanlar ildən-ilə məhsuldarlığı artırırlar. Meyvəçiliyə göstərilən dövlət qayğısından bəhrələnən bağbanlardan Kəngərli rayonunun Xok kəndindən olan sahibkar Xaləddin Zeynalov 4 hektar, Qabıllı kəndində Rəhim Cəfərov 3 hektar meyvə bağına qulluq edirlər. Meyvə ağaclarına vaxtında və düzgün aqrotexniki qaydalar əsasında qulluq edildiyindən məhsuldarlıq da ildən-ilə artır.

Regionun digər rayon və kəndlərində də bu sahəyə böyük maraq var. Məsələn, Şərur rayonunun Xanlıqlar kəndində Ramiz Məmmədov, Əli Sadıqov, Ordubad rayonundakı Sabirkənddə Səyyad Fərəcov, Nəsirvaz kəndində Nicat Rzayev, Naxçıvan şəhərinin Qaraçuq kəndində Ələkbər Mirzəyev, Akif Əkbərov və digərləri hər biri orta hesabla 2 və daha artıq hektar bağa qulluq edirlər.

Regionumuzda meyvə bağlarının sahəsi getdikcə genişləndirilir. Əhalini öz torpağımızda yetişdirilən meyvə sortları ilə təmin etmək üçün muxtar respublikada hər cür imkan və şərait vardır.

Qeyd edək ki, ulu diyarımız barlı-bəhərli torpaqlarına, coğrafi mövqeyinə, eləcə də iqlim şəraitinə görə digər regionlardan fərqlənir. Kontinental iqlim şəraitini nəzərə alan bağbanlar müxtəlif növ meyvə sortları yetişdirmiş və yerli iqlimə uyğunlaşdırmışlar. Muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılması, stimullaşdırılması və əhalinin ərzaq təminatının yerli istehsal hesabına daha da yaxşılaşdılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli Sərəncamı ilə “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. Qəbul edilmiş dövlət proqramının başlıca məqsədi bazar iqtisadiyyatı şəraitində muxtar respublikada meyvə istehsalının artırılmasından, yüksək istehsal xüsusiyyətlərinə malik meyvə bağlarının əkilməsindən, bu sahə üzrə ixtisaslaşmanın aparılmasından, yerli şəraitə uyğun, unudulmaqda olan məhsuldar sortların bərpasından, müasir standartlara cavab verən texnologiyalar əsasında meyvə-tərəvəz emalı müəssisələrinin yaradılmasından ibarətdir.

Dövlət proqramının icrası meyvəçiliyin inkişafına, bu sahənin maddi-texniki bazasının gücləndirilməsinə imkan vermişdir. Bu mühüm sənədin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi, fermerlərə, kənd adamlarına maliyyə dəstəyinin göstərilməsi, sahibkarlığın inkişafı, regionda infrastruktur layihələrin reallaşdırılması istehlakda yerli məhsulların çəkisini xeyli artırmışdır.

Son dövrlərdə muxtar respublikada meyvəçilik əhalinin əsas məşğulluq sahələrindən biri olmuşdur. Yeni meyvə bağlarının salınması, məhsuldar meyvəçiliyin inkişaf etdirilməsi, keyfiyyətli və ucuz başa gələn yerli sortların əldə edilməsi, regionumuzun təbii iqlim şəraitinə uyğun meyvə tinglərinin yetişdirilməsi üçün tingçilik təsərrüfatları yaradılmışdır.

Bütün sahələrin inkişafını diqqətdə saxlayan ulu öndər hələ Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində çalışdığı vaxtlarda bu sahənin genişləndirilməsi, eləcə də inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Elə həmin illərdən başlayaraq hər ilin yaz-payız aylarında yeni meyvə bağlarının salınması, əkilən bağlara il boyu qulluq edilməsi bu sahədə qazanılmış şöhrəti yenidən bərpa etmişdir. Qeyd edək ki, təkcə 2013-cü ildə muxtar respublika ərazisində, ümumilikdə, 304,8 hektarda yeni meyvə bağları salınmışdır.

Muxtar respublikada meyvə bağlarından əldə edilən məhsulların artımı aşağıdakı kimidir:

***Məhsul istehsalı, tonla***




Cədvəldən də göründüyü kimi, ötən il meyvə bağlarından 43276,2 ton məhsul yığılmışdır ki, bu da 2012-ci illə müqayisədə 1280,4 ton çoxdur.

Bu günlər bağbanların işi daha çoxdur. Onlar yetişən məhsulu toplamaqla məşğuldurlar. Bağlardan yığılan məhsullar şənbə və bazar günlərində təşkil olunan kənd təsərrüfatı yarmarkalarına, bazarlara çıxarılır. Ucuz qiymətə satılan belə yerli məhsulların alıcısı da, satıcısı da razılıq edir.

Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyevin Naxçıvanın təbiəti barədə dediyi bu sözləri xatırlatmaq yerinə düşər: “Saf su, bol Günəş, quru iqlim, təmiz hava və ləzzətli meyvə təbiətin muxtar respublikaya bəxş etdiyi zəngin sərvətdir. Həmin sərvətin qədrini bilmək və ondan səmərəli istifadə olunmasını təmin etmək isə bizim borcumuz və vəzifəmizdir”.

Müdriklərin dediyi kimi, ağac əkmək, bağ salmaq həm sağlamlığa, həm də yaşam tərzinə xeyir gətirən bir işdir.

***Muxtar respublikanın bağbanları bu sahəni daha da inkişaf etdirmək, dövlət proqramında qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmək üçün bundan sonra da əllərindən gələni əsirgəməyəcək, ölkə iqtisadiyyatına öz töhfələrini verməyə çalışacaqlar.***

**Tural HAQVERDİYEV**
*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri*

## “Bərəkət” əmtəə nişanı ilə satışa çıxarılan məhsullara tələbat artır

***Əhalinin əsas istehlak mallarına olan tələbatının ödənilməsi və idxaldan asılılığın aradan qaldırılması məqsədilə son illər muxtar respublikamızda ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilmiş, 450-dən çox müxtəliftəyinatlı emal və sənaye müəssisəsi həyata vəsiqə almışdır.***

“Bərəkət Ət Məhsulları Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti də dövlət qayğısından bəhrələnmiş, Babək rayonunun Qoşadizə kəndi ərazisində istehsal müəssisəsi üçün torpaq sahəsi ayrılmış, 2012-ci ilin iyun ayından burada müasir layihə əsasında yeni ət məhsulları kompleksinin tikintisinə başlanılmış və 2013-cü ilin may ayında istifadəyə verilmişdir.

Müəssisənin direktoru Rafiq Əliyev bizimlə söhbətində qeyd etdi ki, ümumi sahəsi 20 min kvadratmetr olan kompleksdə iribuynuzlu və xırdabuynuzlu heyvanların kəsim sexləri, kolbasa və sosiska istehsalı sahələri, soyuducu kameralar, iş otaqları, hazır məhsulların satışı mağazası istifadəyə verilmiş, kəsimə hazırlanan heyvanların saxlanılması üçün hər cür şərait yaradılmışdır. Ümumilikdə, müəssisənin yaradılmasına 3 milyon 248 min manat vəsait sərf olunmuşdur ki, bunun da 1 milyon 530 min manatı Sahibkarlığa Kömək Fondu tərəfindən ayrılmış güzəştli kreditdir.




Müəssisədə gün ərzində 100 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvanların kəsimini həyata keçirmək mümkündür. Burada müxtəlif dondurucu temperaturuna malik 8 soyuducu kamera yaradılmış, məhsulların ticarət mərkəzlərinə çatdırılması məqsədilə 2 ədəd soyuducu yük yeri olan nəqliyyat vasitəsi alınmışdır. Müəssisədə iri doğranmış, paketlənmiş, çəkilmiş, eləcə də yarımfabrikat paketlənmiş ət məhsulları istehsal olunur. Kompleksdə yaradılan kolbasa istehsalı sahəsinin gündəlik istehsal gücü 2 tondur. İstifadə olunan xammalın mütəmadi olaraq laborator müayinədən keçirilməsi burada keyfiyyətli kolbasa istehsalına imkan verir.

Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmış müəssisədə istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilmişdir. Həmçinin müəssisənin daim təzə ətlə təmin olunması üçün ayrı-ayrı rayonlarda fəaliyyət göstərən fermer və fərdi sahibkarlarla əlaqələr yaradılmışdır. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması məqsədilə alınmış soyuducu kameralı xüsusi avtomaşınlardan səmərəli istifadə edilir. “Bərəkət Ət Məhsulları Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində 30 nəfər daimi işlə təmin olunmuşdur. Hazırda müəssisədə müxtəlif çeşidlərdə ət və ət məhsulları, hisə verilmiş və bişirilmiş kolbasa məmulatları, eləcə də sosiska istehsal olunur.

Burada ət və ya hazır məhsul laborator analizdən keçirildikdən sonra istehsala və ya satışa buraxılır. Xammal soyuducu anbarda mənfi 18 dərəcədə, hazır məhsul isə müsbət 8-10 dərəcədə xüsusi kameralarda saxlanılır.

“Bərəkət” əmtəə nişanı ilə satışa çıxarılan ət və ət məhsulları alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dadı-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Kompleksdə müxtəlif çeşidlərdə ət və ət məhsullarının istehsal olunması istehlakçılara seçim imkanı yaradır. İstehsal olunan keyfiyyətli ət məhsulları əhalinin və dövlət tərəfindən təminatı həyata keçirilən qapalı müəssisələrin tələbatını tamamilə ödəyir. Gələcəkdə müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışı və xarici bazarlara çıxarılması da planlaşdırılır.

Ət məhsulları kompleksində olarkən ayrı-ayrı rayonlardan kəsim üçün iribuynuzlu və xırdabuynuzlu heyvanlar gətirmiş fermer və fərdi sahibkarlardan Sabir Nuriyev, Nadir Qasımov, Sadıq Qədimov, Muxtar İbrahimov qeyd etdilər ki, son illər muxtar respublikamıza gətirilən və lizinq yolu ilə sahibkarlara verilən damazlıq düyələr ətlik və südlük cins mal-qaranın artımına səbəb olmuşdur. Kəsimə verilən ətlik cins mal-qaranın orta hesabla hər birinin 500-600 kiloqram əti olur ki, bu qədər əti hər hansı bir kənd yaşayış məntəqəsində və ya rayon mərkəzində 2-3 günə satıb qurtarmaq olmur, nəticədə, məhsul zay olurdu.

Belə bir kompleksin istifadəyə verilməsi ilə problem aradan qaldırılmış, sahibkar istədiyi vaxt təsərrüfatında olan ətlik iribuynuzlu və xırdabuynuzlu heyvanları kompleksə təhvil verib ətin müqabilində pulunu nağd alır. Eyni zamanda sahibkar əgər, sadəcə, kəsim üçün müraciət edibsə, kəsilən heyvanın əti müəssisənin balansında olan xüsusi maşınlarla sifarişçilərin ünvanlarına çatdırılır.

Firma mağazasının xidmətlərindən istifadə edən Nazilə Əkbərova, Ələkbər Qədimov, Emin Abbasov ət məhsulları kompleksinin istehsal və xidmət baxımından yüksək şəraitə malik bir müəssisə olduğunu qeyd etdilər. Bu müəssisədə istehsal olunan müxtəlif çeşiddə keyfiyyətli ət və ət məhsullarından razılıqlarını bildirdilər.

**Kərəm HƏSƏNOV**

## Ümumi orta təhsil bazasından məzun olmuş əvvəlki illərin məzunları üçün orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı



***İyunun 29-da Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ümumi orta təhsil bazasından məzun olan əvvəlki illərin məzunları üçün orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı keçirib.***

Naxçıvan Muxtar Respublikasında imtahan 14 nömrəli tam orta məktəbdə təşkil edilib. İmtahanların keçirilməsi üçün 41 otaq ayrılıb. TQDK-nın Naxçıvan Muxtar Respublikası üzrə Regional Bölməsinin rəhbəri Sabir Məmmədovun verdiyi məlumata görə, orta ixtisas təhsili müəssisələrinə sənəd verənlərlə yanaşı, eksternat qaydada təhsil sənədi almaq istəyənlər də imtahan veriblər. İmtahanlarda iştirak etmək üçün, ümumilikdə, 908 nəfər müraciət edib.

İmtahanın keçirilməsinə 3 nəfər Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından, 5 nəfər isə komissiyanın Naxçıvandakı regional bölməsindən olmaqla, ümumilikdə, 8 imtahan rəhbəri cəlb edilib. 77 imtahan nəzarətçisinin hamısı muxtar respublikanı təmsil edib. TQDK-nın Naxçıvan Muxtar Respublikası üzrə Regional Bölməsinin üç nəfər əməkdaşı isə imtahana ümumi rəhbərliyi həyata keçirib.

İmtahan saat 11-də başlanıb və 2 saat davam edib. Sualların cavablandırılması üçün abituriyentlərə 1 saat 30 dəqiqə, təqdim olunmuş mövzular üzrə inşa yazılarının yazılması üçün isə 30 dəqiqə vaxt ayrılıb.

İmtahan keçirilən məktəbin yaxınlığında həyəcanlı görünən abituriyentlərin valideynləri ilə görüşüb həmsöhbət olduq. Babək rayonunun Didivar kəndindən olan valideyn Elman Əliyev dedi:

– Bu gün oğlum Murad imtahan verir. Çox həyəcanlıyam. İmtahanların obyektiv keçiriləcəyinə şübhə etmirəm. Ümid edirəm ki, övladım bu imtahanda uğur qazanacaq. Burada bizim üçün – övladlarını həyəcanla gözləyən valideynlər üçün çox gözəl şərait yaradılıb.

Şərur rayonunun Qarxun kəndindən olan Salman Quliyev isə qızına dəstək üçün bura gəlib. Deyir ki, qızım Təranə imtahana yaxşı hazırlaşıb. İnanıram ki, qəbul imtahanında uğur qazanacaq. O, ərazidə insanların rahatlığı üçün iaşə xidmətinin təşkilindən də razılığını ifadə etdi.

Saatlar $11^{00}$-i göstərəndə imtahan başladı. İmtahan başa çatdıqdan sonra bir neçə abituriyentlə həmsöhbət olduq. Naxçıvan şəhərinin Əliabad qəsəbəsindən olan Leyla Həsənovanın dediklərindən: "İmtahan yüksək səviyyədə təşkil olunmuşdu. Nəzarətçilər tərəfindən sakitliyin təmin olunması imkan verdi ki, təqdim olunan suallara diqqətimi yönəldə bilim. Ümid edirəm ki, həm valideynlərimin, həm də müəllimlərimin etimadını doğruldacağam".

Qeyd edək ki, qəbul imtahanı mərkəzləşmiş qaydada respublikanın 14 şəhərində keçirilib.

İmtahanda iştirak etmək üçün ölkə üzrə 14 min 923 abituriyent ərizə təqdim edib. Onlardan 5459 nəfərini oğlanlar, 9464 nəfərini qızlar təşkil edir. 14380 abituriyent Azərbaycan bölməsi, 543 abituriyent isə rus bölməsi üzrə imtahan verib.

Məlumat üçün bildirək ki, ixtisas seçimi iyulun 2-dən 10-dək həyata keçiriləcək. İxtisas seçiminə ümumi balı 16-dan və hər bir fənn üzrə balı 8-dən az olmayan abituriyentlər buraxılacaqlar.

**E.KƏLBİZADƏ**

## Qida zəhərlənmələrindən necə qorunmalıyıq?

***İnsan həyatı üçün ən zəruri elementlərdən biri də qidalanmadır. Əgər insan qidalanmasa, yaşaya bilməz. Və qidalardan elə istifadə etməliyik ki, bunun sağlamlığımıza ziyanı yox, xeyri olsun.***

Ötən günlərdə həmkarlarımızdan birinin azyaşlı övladının mağazadan alınan şirniyyatdan zəhərlənməsi və son anda həkimlər tərəfindən xilas edilməsi məni bu yazını yazmağa vadar etdi. "Qida zəhərlənməsindən necə qorunmalıyıq?" – deyə öz-özümə sual verdim, cavabını bu sahənin mütəxəssislərində axtardım.

Məsələ ilə bağlı mütəxəssis rəyini öyrənmək üçün Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Sevil İbrahimovaya müraciət etdik. O, bizimlə söhbətində bildirdi ki, insanların qidalanması zamanı istifadə etdikləri qida məhsullarının mikrobla, yaxud zəhərli maddələrlə çirklənməsi nəticəsində qida zəhərlənməsinin baş verməsi mümkündür. Qidalanmadan bir neçə saat sonra kəskin surətdə ürəkbulanması, zəiflik, qarınüstü nahiyədə ağrı hiss edilir ki, bu da zəhərlənmənin əlamətlərindəndir. Zəhərlənmə zamanı həmçinin qusma baş verir və bu, xəstənin vəziyyətini bir qədər yüngülləşdirir. Zəhərlənmə zamanı çox vaxt temperatur yüksəlir, başağrısı və bütün bədəndə ağrı hiss olunur. Əsasən, belə hallara yay aylarında tez-tez rast gəlinir. Adətən, qida zəhərlənməsinin fəsadları bir neçə günə aradan qalxır, lakin bəzi zəhərlənmə halları var ki, həddən artıq ciddi problemlərə yol aça bilər. Bu zaman həkim nəzarətinə ehtiyac vardır.

Baş həkim onu da bildirdi ki, çox vaxt əhali arasında zəhərlənmədən sonra türkəçarələrdən istifadə halı müşahidə olunur. Bu, qəbulolunmazdır. Şəfa ocaqlarında qida zəhərlənməsindən müraciət edən xəstələrə təxirəsalınmaz yardım mədənin yuyulması ilə başlanır. Qida maddələri ilə zəhərlənmə hallarında bir və iki gün ərzində xəstə yeməkdən çəkinməlidir; bu zaman ona ılıq çay vermək olar. Sonralar isə həkimin göstərişi üzrə qidalanma rejimi tədricən genişləndirilir. Qida zəhərlənmələrinə daha çox ev şəraitində hazırlanan və çox sevilən müxtəlif turşular, mürəbbələr və kompotlar səbəb olurlar. Bəzən isə bu məhsulların qəbul edilməsi insanın həyatına son qoyur. Bu xüsusən də botulizm xəstəliyinə aiddir. Botulizm törədən bakteriyalar insan həyatı üçün təhlükəli deyil, lakin bakteriyalar tərəfindən hazırlanan toksin-botulotoksin dünyada ən güclü bioloji zəhərlərdəndir.

Klostridium botulimum bakteriyası torpaqda yaşayır. Oradan bu bakteriyalar tərəvəzlərə, meyvələrə, suya düşür. Əgər ev şəraitində turşular, tərəvəz salatları, kompotlar, mürəbbələr və sair üçün hazırlanan meyvə və tərəvəzlər kifayət qədər yaxşı təmizlənməsə və yuyulmasa, düzgün sterilizasiya olunmasa və ya məhsul uyğun olmayan şəraitdə saxlanılarsa, hazırlanmış qida botulizm xəstəliyinə tutula bilər. Bu da insan sağlamlığı üçün ciddi təhlükədir.

Onu da qeyd edək ki, qida zəhərlənmələri çox zaman həmin xəstəliyə səbəb olan mikrobların ərzaq məhsullarını çirkləndirməsi barədə kifayət qədər məlumatın olmaması üzündən baş verir. Yeyinti məhsullarının hazırlanması, xüsusən soyuq qəlyanaltıların, salatların hazırlanması zamanı adi gigiyena qaydalarına əməl edilməməsi, doğrayıcı bıçaq, doğrayıcı taxta, stol, qab yuyulan yerlər, soyuducu vaxtlı-vaxtında yaxşı təmizlənməsə, ərzaqların saxlanma qaydaları pozularsa, qida zəhərlənmələrinin baş verməsi mümkündür. Həmçinin ərzaq məhsullarının düzgün saxlanılmaması nəticəsində onların müxtəlif həşəratlar və gəmiricilər tərəfindən çirklənməsi baş verə bilər. Çiy yumurtanın istifadədən əvvəl yuyucu vasitələr istifadə etməklə yuyulması, çirkli yumurtaya əllə toxunulduqdan sonra əlləri sabunla yumadan digər ərzaq məhsullarına toxunmaq, göyərtilərin yaxşı yuyulmaması da qida zəhərlənmələrinə səbəb ola bilər. Soyuducuda saxlanılmalı olan ət və süd məhsullarının soyuducudan kənarda saxlanmaqla qəbul edilməsi də olduqca təhlükəlidir. Buna görə də hər bir insan qəbul etdiyi hər hansı qidanın təmizliyinə fikir verməlidir. Bu qaydalara əməl etməklə biz həm özümüzü, həm də yaxınlarımızı qida zəhərlənmələrindən qoruya bilərik.

***P.S.** Təəssüflə qeyd etmək lazımdır ki, müvafiq orqanların mütəmadi olaraq həyata keçirdiyi tədbirlərə, tətbiq olunan inzibati cəzalara baxmayaraq, bu gün hələ də mağazalarda vaxtı keçmiş məhsullara rast gəlinir. Fikrimizcə, bunun əsas səbəblərindən biri də budur ki, ictimaiyyət, xüsusilə də əhalinin ziyalı təbəqəsi piştaxtalarda belə məhsullarla qarşılaşdıqları zaman mağaza sahiblərinə, eləcə də satıcılara iradlarını bildirmirlər, "məndən ötsün, kimə dəyir-dəysin" prinsipi ilə hərəkət edirlər. Bundan zərərli çıxan isə bütün cəmiyyət olur.*

**Sona MİRZƏYEVA**

## Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirir

***Dünən Şərur Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Zeyvə kəndində ətraf mühitin qorunmasına, həmçinin elektrik enerjisindən və təbii qazdan düzgün istifadə qaydalarına həsr olunmuş tədbir keçirilmişdir.***

Tədbirdə Şərur rayon prokurorunun müavini Anar Həsənov "Təbiəti mühafizə hər birimizin vətəndaşlıq borcudur" mövzusunda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, ölkəmizdə son illərdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair bir sıra normativ-hüquqi aktlar qəbul edilmiş, təbiətin qorunması sahəsində mühüm addımlar atılmışdır. Nəzərə çatdırılmışdır ki, ətraf mühitə ziyan vurulması nəticəsində bitki örtüyünün, heyvanların, su obyektlərinin, bioloji sərvətlərin məhv olması, atmosferin çirklənməsi və sair hallar baş verir. Odur ki, ətraf mühitin qorunması günümüzün vacib məsələlərindən biridir və bu iş hər kəsin vətəndaşlıq borcu olmalıdır.

Vurğulanmışdır ki, ekologiyadan istifadə sahəsində inzibati məsuliyyət Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindəki "Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar" fəslində, ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Ekoloji cinayətlər" adlanan 28-ci fəslində öz əksini tapmışdır. Anar Həsənov qanunsuz istifadə halları ilə əlaqədar İnzibati Xətalar və Cinayət məcəllələrindəki maddələr barədə sakinlərə məlumat vermişdir.

Sonra "Enerji israfçılığına qarşı mübarizə günün tələbidir" mövzusunda çıxış edən Şərur rayon prokurorunun böyük köməkçisi Araz Zöhrabov qeyd etmişdir ki, böyük dövlət qayğısı nəticəsində muxtar respublikamızda əhali fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunmuşdur. Hazırda qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. "Hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir", – deyən Araz Zöhrabov bildirmişdir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslinə yeni maddə – "Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması" maddəsi əlavə olunmaqla cinayət qanunvericiliyimizdə bir sıra əməllər cinayət kimi təsbit edilmişdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

## Birgə layihənin növbəti mərhələsi həyata keçirilir

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hazırda dünya əhalisinin 350 milyonu hepatit "B", 170-220 milyonu isə hepatit "C" virusları ilə yoluxmuşdur. Hər il bu xəstələrin sayı 3-4 milyon nəfər artmaqdadır. Müəyyən olunmuşdur ki, xroniki infeksiyalaşmış şəxslərdə xəstəlik ciddi ağırlaşmalarla nəticələnə bilir. Viruslarla yoluxmuş şəxslərdə ilk illər xəstəliyin əlamətləri özünü göstərmir. Virusun vaxtında tapılması bu virusla müalicəni düzgün aparmağa və yoluxmuş şəxsin həyatını xilas etməyə imkan verir.

Hepatit virusu xəstəliyinə qarşı mübarizə tədbirləri muxtar respublikamızda da daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Bakı şəhərində fəaliyyət göstərən "Roche Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə cari ilin fevral ayından etibarən "C" və "B" virus hepatitlərinin profilaktikası, müayinə və müalicəsi" adlı birgə layihə həyata keçirir. Ötən müddətdə keçirilən birgə tədbirlərdə kütləvi informasiya vasitələrində virus hepatitlərinin dünyada aktuallığı, həmçinin muxtar respublikada epidemioloji statusu barədə məlumatlar verilmiş, əhali üçün planlaşdırılan konsultasiyaların tarixi və yeri müəyyənləşdirilmiş, müayinələri aparacaq tibb işçiləri QİÇS ilə Mübarizə və Profilaktika Mərkəzində xüsusi təlim keçmiş, mərkəz müayinələr üçün kifayət qədər reaktivlə təmin edilmişdir. İlk mərhələdə Babək rayonunun Nehrəm kəndində 2 həftə ərzində 18 yaşdan yuxarı 2 min nəfərin müayinəsinin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Artıq Nehrəm Kənd Sahə Xəstəxanasında layihənin növbəti mərhələsinə start verilmiş, əhalinin profilaktik müayinələrinə başlanılmışdır. Ətraf kəndlərin sakinlərini də əhatə edən müayinələr üçün kənd sahə xəstəxanasında xüsusi kabinə ayrılmış, lazımi şərait yaradılmışdır. Qan analizləri QİÇS ilə Mübarizə və Profilaktika Mərkəzində müayinə edildikdən sonra "Roche Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətində fəaliyyət göstərən yüksəkixtisaslı həkimlərin hepatit diaqnozlu xəstələrlə görüşü keçiriləcək və müalicə taktikası üçün göstərişlər veriləcəkdir.

Birgə layihə çərçivəsində Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında elmi-praktik konfrans da keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ahıllar evinin sakinlərinə tibbi xidmət göstərilib

Muxtar respublikamızda ahıl insanların, o cümlədən Ahıllar evinin sakinlərinin sağlamlığının qorunması daim diqqət mərkəzindədir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Tibbi-Sosial Ekspert Komissiyasının həkimləri ənənəyə sadiq qalaraq iyunun 28-də Ahıllar evində olublar. Onlar sakinləri müayinədən keçirib, xəstəliklərin qarşısının alınması və vaxtında müalicə edilməsi üçün tibbi məsləhətlər veriblər. Həmçinin bir ahıl eşitmə aparatı, iki ahıl əsa ilə təmin olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***


***İtmişdir***

Naxçıvan şəhəri, Xətai məhəlləsi 19/52-də yaşayan Cəfərov İlham Məmməd oğlunun adına 30.12.2009-cu il tarixdə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 00014914 seriya nömrəli çıxarış və AA003578 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Şəhriyar küçəsi, ev 48-də yaşamış Kərimov Məcid Həsən oğlunun adına olan evin 1598 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Yusifov Əkbər İman oğlunun adına Naxçıvan Tibb Kolleci tərəfindən 1998-ci ildə verilmiş diplom itdiyindən etibarsız sayılır.


### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kollektivi iş yoldaşları Südabə Orucovaya, əzizi **İLQARIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Könül Səfərovaya, bacısı **DURNANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Nevrologiya şöbəsinin müdiri Yazgül Rzayeva və şöbənin kollektivi iş yoldaşları Könül Səfərovaya, bacısı **DURNANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 566